**UOT 94(470)"16/18"**

# RUSİYADA SİYASİ PARTİYALAR I DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

**S.B.HÜSEYNOVA**
***Bakı Dövlət Universiteti***
***sevdahuseyn@mail.ru***

*Məqalə Rusiyadakı siyasi partiyaların I Dünya müharibəsi illərindəki fəaliyyətinin araşdırılmasına həsr olunmuşdır. Belə ki, I Dünya müharibəsi illərində burjua partiyaları tarixində mühüm bir mərhələ olmuşdur. Bu dövrün əsas xarakterik xüsusiyyətini müharibəyə münasibətdə çar hökuməti ilə tam həmrəylik, hər cür müxalifətdən imtina xətti təşkil edilmişdir.*

**Açar sözlər:** Rusiya, Duma, siyasi partiya, dünya müharibəsi

Birinci dünya müharibəsi burjua partiyaları tarixində mühüm bir mərhələ kimi özünü təsdiq etmişdir. Onun əsas xarakterik xüsusiyyəti çox mürəkkəb, ancaq sonda başa çatmayan bir prosesin – vahid milli-liberal partiyasının yaradılması ideyasının tədrici inkişaf tendensiyası olmuşdur (1, 171).

Burjua partiyalarının müharibəyə münasibətini onların vahid taktiki kursu kimi çar hökuməti ilə tam həmrəylik, hər cür müxalifətdən imtina xətti müəyyən edirdi. Oktyabristlər partiyası üzvlərinin Moskvada və Peterburqda keçirilən yığıncaqları birliyə, orduya kömək göstərməyə çağıran qərarnamələr qəbul etmişdi.

Bütün siyasi partiyaların «daxili birliyə» olan sədaqəti Dumanın 1914-cü il 26 iyun iclasında da nümayiş etdirildi: iştirak edən nümayəndələr təntənəli şəkildə çar hökumətinin bütün hərbi planlarını qeyd-şərtsiz müdafiə edəcəklərinə and içdilər.

Kadet partiyasının duma fraksiyası da Dumanın 26 iyul fövqəladə iclasında Milyukovun təqdim etdiyi bəyannaməni bir səslə bəyəndiyini bildirdi. Milyukov kadet partiyası adından hökumətə tam dəstək verəcəklərini elan edirdi: «Bu mübarizədə heç bir şərt və tələb qoymadan biz bir yerdə olmalıyıq» (1, 209).

1914-cü ilin yayında xəstə və yaralı döyüşçülərə yardım üçün Ümumrus Zemstvo İttifaqı yaradıldı. Zemstvo nümayəndələrinin iyulun 30-da keçirilən

qurultayında İttifaqın Q.E.Lvov rəhbər olmaqla Baş Komitəsi seçildi. İttifaqın rəhbərliyində oktyabristlər çoxluq təşkil etsələr də, onun işində kadet nümayəndələri də – B.A.Xarlamov, A.B.Tırkova, P.P.Oronski də iştirak edirdilər.

Kadet partiyası əsasən Ümumrus şəhərləri ittifaqının təşkili və fəaliyyətində daha aktiv iştirak etmişlər. 1914-cü il 8-9 avqustda Moskvada keçirilən ilk qurultayında İttifaqın Baş Komitəsinə oktyabrist B.D.Bryanski başçılıq edirdisə, sonradan kadetlər vəziyyəti dəyişməyə nail oldular. Şəhərlər İttifaqının 1914-cü ilin sentyabrında keçirilən qurultayında proqressivçilərin aktiv dəstəyi ilə kadet M.V.Celnokov ittifaqın sədri, sol kadet N.M.Kişkin isə onun müavini seçildi. İttifaqın Mərkəzi Komitəsinə 5 kadet, 4 proqressivçi, 1 oktyabrist daxil oldu (3, 17). Artıq 1915-ci il yanvarın 1-də bu ittifaqa imperiyanın 300 şəhəri daxil olmuşdu, 100 şəhər isə ianə yardımları edirdi. İttifaqın ümumi büdcəsi 32 mln. manat təşkil edirdi. Bu ittifaq qospitalların tikilməsində, sanitar qatarların təşkilində, xaricdən dərman gətirilməsi və tibbi avadanlıq tədarükündə geniş və aktiv fəaliyyət göstərirdi (3, 36).

1915-ci ilin yayından isə proqressivçilərin təşəbbüsü ilə Hərbi Sənaye komitələri yaranmağa başladı. Əgər Zemstvo ittifaqında oktyabristlər, Şəhər ittifaqında kadetlər üstünlük təşkil edirdilərsə, yeni təşəkkül tapan sənaye komitələrində isə proqressivçilər aparıcı rol oynayırdılar. Məşhur «Utro Rossii» qəzetində bu komitələri yaratmaqla əsas məqsədin hərbi sifarişləri və onların yerinə yetirilməsi üzərindəki nəzarəti öz əlində toplayan müəssisələri xammal işçi qüvvəsi ilə təmin edən və hazır məhsulu nəql etmək funksiyalarını reallaşdıran bir mərkəzi orqana malik olmaq taktikası açıq şəkildə bəyan edilirdi. Proqressivçilərin belə bir orqana malik olmaqla son məqsədi də açıqlanırdı: tarixən formalaşmış hakim siyasi qüvvəni məhz indi burjuaziyanı dövlət quruculuğu və idarəçiliyinə buraxmağa məcbur etmək (9, 112).

1915-ci il 25-27 iyulda Hərbi Sənaye komitələrinin I Ümumrus qurultayı keçirildi. Burada Mərkəzi orqan seçildi ki, bunun da sədri oktyabrist A.İ.Quçkov oldu. Onun müavini proqressivçi A.İ.Konovalov təyin edildi. Öz ətrafında 12 mərkəzi quberniya sənaye komitələrini birləşdirən Moskva hərbi-sənaye komitəsinin rəhbərliyinə də proqressivçilərin lideri olan P.P.Ryabuşinski keçmiş oldu. Bundan sonra kadetlərlə proqressivçilərin konsolidasiyası tək nəzəri cəhətdən deyil, həm də praktik, əməli cəhətdən də baş tutmuş oldu (4, 92).

Bu dövrdə kadetlər hərbi-sənaye komitələrinin təşkilində və fəaliyyətində aktiv iştirak edirdilər. Belə ki, Mərkəzi hərbi-sənaye komitəsinin rəhbərliyinə kadet liderlərindən N.N.Kutler, D.Ç.Zernov, N.K.Volkov, İ.A.Kablukov və b. daxil idilər.

Hərbi sənaye komitələri, Zemstvo və Şəhər ittifaqları mənafe birliyi əsasında burjua partiyalarının öz aralarında qarşılıqlı fəaliyyətini həyata keçirən yeni tip orqanlar idilər. Hərbi-sənaye komitəsi burjua və xırda burjua partiyalarının gələcək Müvəqqəti hökumət dövründə koalisyon kabinetə aparan birbaşa əməkdaşlığının birinci mərhələsi oldu.

Fəaliyyətdə olan hökumət aparatının istefası kimi ümumi şüar Dövlət Dumasında partiyalararası koalisiyanın yaranmasını mümkün etdi ki, bu birlik də «Proqressiv blok» adını aldı. 1915-ci ilin avqustunda yaranan bu blok daha sağ təmayüllülüyü ilə seçilirdi. Bu bloka Dövlət Dumasının 422 üzvündən 236-sı daxil olmuşdu ki, bu siyasi qüvvələr də P.N.Milyukovun başçılığı ilə kadetlər, İ.N.Zefremovun başçılığı ilə proqressivçilər, N.B.Saviçevin başçılıq etdiyi oktyabristlər – zemstvoçular fraksiyası, V.N.Lvov başda olmaqla mərkəz qrupu, V.A.Bobrinskinin millətçi qrupu və Dövlət Şurasının 3 qrupundan ibarət idi (6, 211). Bu blokun yaranmasında Duma birləşməsi ideyasının həyata keçirilməsini öz çiyinlərində daşıyan kadetlərin aktiv mövqeyini də nəzərdən qaçırmaq olmaz. Belə ki, kadetlər öz üzərlərinə çox məsul bir vəzifə götürmüşdülər: bloka daxil olan duma fraksiyalarının Dövlət Şurası ilə yaxınlaşmasına nail olmaq.

Blokun proqram deklarasiyası 1915-ci il avqustun 26-da «Reç» qəzetində dərc olundu. Təhlil göstərir ki, bu proqram kadetlərin proqramından daha mülayim idi və daha yığcam tələbləri əks etdirirdi: yerli hakimiyyət orqanlarının tərkibinin yeniləşdirilməsi, dini inanca görə təqib olunmağa son qoyulması, yəhudi və ukrayna dilində nəşrlərin bərpa edilməsi, Polşaya muxtariyyət verən layihənin işlənməsi, bir sıra siyasi məhbusların azad olunması və həmkarlar ittifaqlarının bərpa edilməsi.

Deklarasiya tam kompromis xarakter daşıyırdı. Kadetlər həm də «etibar nazirliyi» yaradılması mövqeyində qalırdılar (1, 25).

Nazirlər Şurasının 1915-ci il 26 avqust tarixli iclasında Proqressiv blokun tələbləri müzakirəyə çıxarılan zaman bir çox məsələlərdə hökumətlə blokun fikirlərinin uyğun gəldiyi aydın oldu. Hətta Qoremıkin «hökumətin gələcək fəaliyyətində proqramın bir hissəsinin qəbul ediləcəyi» haqqında fikir də bildirmişdi (1, 24).

Bu hadisələrin gedişində burjua müxalifəti daha işgüzar şəkildə yaradılacaq «etibar kabineti»nin üzvlərinin siyahısının müzakirəsinə başladı. Belə ki, 18 avqusda Moskva Dumasının qəbul etdiyi qətnaməsi «indi ölkədə yaranan şəraitin cəmiyyətin etibar etdiyi bir hökumətin yaradılmasını tələb etdiyini» bəyan etdi. Petroqrad Duması da avqustun 26-da analoji bəyannamə qəbul etdi (8, 150).

Ölkənin bütün liberal – müxalifətçi dairələri Moskva dumasının qərarını aktiv şəkildə dəstəkləyərək hər növ burjua-ziyalı cəmiyyətləri, təşkilatları formasında onunla birləşmişdi.

Ancaq II Nikolay proqressiv blok tərəfindən irəli sürülmüş siyasi islahatlardan qəti imtina edərək, Dumanın sessiyasını da dayandırmağa göstəriş verdi. Belə ki, o, burjuaziyanın dövlət idarəçiliyinə yaxınlaşmasını mütləqiyyətin hakimiyyətini məhdudlaşdıracaq təhlükə kimi qəbul edirdi.

Çarın bu addımı burjua müxalifəti nümayəndələrinin çoşqun narazılığına səbəb oldu. Partiyalararası məsləhətləşmədən sonra çarın yanına nümayəndə heyəti göndərmək qərarı qəbul edildi. Ancaq II Nikolay bu nümayəndə heyəti-

ni də qəbul etməkdən imtina etdi və 1915-ci il sentyabrın 20-də Nazirlər kabinetinin tərkibini liberal burjuaziya ilə əks cəbhədə dayanan siyasi qüvvələrin xeyrinə yeniləşdirmiş oldu. Məsələn, daxili işlər naziri, birbaşa çariça tərəfindən himayə olunan sağ qüvvələrin lideri A.N.Xvostov təyin edildi (10, 155).

Növbəti il 1915-ci ilin payızından 1916-cı ilin payızına qədərki dövr liberal burjuaziyanın siyasi aktivliyinin kəskin enməsi kimi xarakterizə olunur. Bu dövr ərzində yalnız parlament mübarizə üsulundan istifadə olunmuşdur. Bu baxımdan tərkibində burjua fraksiyaları liderlərinin olduğu parlament nümayəndə heyətlərinin müttəfiq dövlətlərə səfərləri az əhəmiyyət kəsb etmirdi. Belə ki, bu burjua liderləri qərb diplomatları, o cümlədən Fransa və İngiltərənin səfirləri M.Paleoloq və C.Bukenen ilə daha yaxın ünsiyyət qura bildilər (2, 190).

1916-cı ilin payızında cəbhədə vəziyyətin pisləşməsi ilə əlaqədar olaraq ölkədə daxili siyasi şəraitin gərginləşməsi isə burjuaziyanın siyasi aktivliyinin yeni bir dalğa ilə yüksəlməsinə səbəb oldu. Bu son hücum isə nəhayət onun siyasi hakimiyyətə gəlməsi ilə nəticələnmiş oldu.

Beləliklə, 1914-1917-ci illərdə rus burjuaziyası fövqəladə bir çevikliklə siyasi cəhətdən təşkil olunaraq yerli özünüidarəçiliyi, maarif və təhsili, eləcə də hərbi-sənaye komitələrini öz əlində topladı. Bununla da demək olar ki, hakimiyyətin astanasına gəlib çıxmış oldu. Hakimiyyətə tam yiyələnmək üçün isə mütləqiyyətlə açıq şəkildə son döyüşə başlamaq lazım idi.

**ƏDƏBİYYAT**


1. Аврех А.Я. Царизм и IV Дума 1912-1914 гг. М.: Наука, 1981, 291 с.
2. Боханов А.Н., Горинов М.М. История России с древнейших времен до конца XX века. М.: Наука, 2001, 476 с.
3. Думова Н.Г. Кадетская партия в период первой мировой войны и Февральской революции. М.: Наука, 1988, 244 с.
4. Дякин В.С. Русская буржуазия и царизм в годы первой мировой войны, 1914-1917 гг. М.: Наука, 1967, 368 с.
5. История дипломатии. М.: Мидгард, 2009, 943 с.
6. Непролетарские партии России. Урок истории.
7. Спирин Л.М. Крушение помещичьих и буржуазных партий в России. М.: Мысль, 336 с.
8. Старцев В.И. Русская буржуазия и самодержавие в 1905-1917 гг. Л.: Наука, 1974, 272 с.
9. Шепелев Л.Е. Царизм и буржуазия в 1904-1915 гг. М.: Наука, 272 с.
10. Черменский Е.Д. IV Государственная Дума и свержение царизма. М.: Мысль, 1976, 318 с.

## ПОЛИТИЧЕСКИЕ ПАРТИИ В РОССИИ В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

**С.Б.ГУСЕЙНОВА**

### РЕЗЮМЕ

Статья посвящена исследованию деятельности политических партий в России в годы первой мировой войны, так, как в годы в эти в истории буржуазных партий произошел значительный период. Основной характерной чертой этого периода является полное сотрудничество с царским правительством по отношению к войне, а также проведения линии отказа от всех оппозиционных действий. В статье представляется тактика и политическая платформа в годы первой мировой войны основных политических партий, которыми являлись кадеты и октябристы. Положительным явлением в политической жизни этого периода является «Прогрессивный блок», который превратился в серьезную силу в исследуемый период. В заключение можно сказать, что в 1914-1917 годах русская буржуазия пришла к власти, политическим маневром собрала в своих руках местное самоуправление, образование и военно-промышленные комитеты.

**Ключевые слова:** Россия, Дума, политическая партия, мировая война

## POLITICAL PARTIES IN RUSSIA IN THE YEARS OF THE I WORLD WAR

**S.B.HUSEYNOVA**

### SUMMARY

The article is dedicated to the activites of political parties in Russia during the first World War. So, World War I has been an important stage in the history of bourgeois parties. The main characteristic feature of this period contained attitude to war, any kind of avoidance scratch from opposition, complete solidarity with the tsarist regime. Formation and activites of “Progressive alliance” are precisely analyzed as well. Finally, the article concludes that in 1914-1917, with extraordinary political mobility, the Russian bourgeois gathering in its hand local self government, education and committees of military industry, became the threshold of the political authority.

**Key words:** Russia, Duma, political party, world war